Tarix və onun problemləri, №3 2009

A.M.BALAYEV
*tarix elmləri namizədi*

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİNƏ ÜMUMİ BİR BAXIŞ (1996-1998-ci illər)

XX əsrin 90-cı illərinin II yarısında Azərbaycan Respublikasının xarici siyasəti bir sıra uğurlu nəticələri ilə diqqəti cəlb edirdi. Beynəlxalq münasibətlər sisteminin fəal subyektinə çevrilməkdə olan Azərbaycan Respublikası iqtisadi, diplomatik, siyasi, humanitar sahələrdə bir çox dövlətlərlə, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edirdi. Xarici siyasətdə başlıca istiqamətləri sərrast, doğru müəyyənləşdirmiş respublika rəhbərliyi ölkənin hərtərəfli daxili inkişafına can atırdı.

Bu tarixi dövrdə «Günəşli», «Çıraq», «Azəri» yataqlarından çıxarılan neftin Qara dəniz limanlarına Rusiya Federasiyası və Gürcüstan ərazilərindən keçən «Şimal» (14 000 km) və «Qərb» (920 km) neft kəmərləri ilə nəql ediləcəyi barədə müqavilələr imzalandı (6, №13). Yeri gəlmişkən qeyd etmək lazımdır ki, 1996-cı ilin sonuna kimi Bakı – Novorossiysk «Şimal» kəmərinin Azərbaycan hissəsi hazır oldu. Bu kəmərə 26 km-də əlavə olundu (2, 2 oktyabr).

1996-cı ildə dənizdə ABƏŞ-in qazdığı ilk neft quyusu güclü fontan vurdu.

Dövlət yalnız neft sektoruna deyil, digər sahələrə də xüsusi fikir verirdi. 1996-cı ildə respublikaya ölkə rəhbərliyi gələn xarici investisiyaların 33 % qeyri-neft sektoruna yönəltmişdir (9, 30 oktyabr).

Bu zaman Respublikamız başqa ölkələr ilə tranzit əlaqələrinə xüsusi diqqət yetirirdi. Bu məqsədlə 1996-cı il may ayının 13-də Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan respublikaları arasında tranzit yük daşınmasının tənzimlənməsi sahəsində əməkdaşlıq və dəmiryol nəqliyyatı fəaliyyətinin əlaqələndirilməsi haqqında Sarahs (Türkmənistan) sazişi imzalandı (7, 14 may).

Bunun davamı olaraq 1996-cı il dekabr ayında Odessada (Ukrayna) Azərbaycan, Gürcüstan və Ukrayna respublikaları rəhbərlərinin Avrasiya nəqliyyat dəhlizi yaradılması haqqında saziş imzalandı (12, v.115).

Ölkədə islahatların başlanması ilə əlaqədar 1995-ci ildən başlayaraq 1300-dən çox kolxoz ləğv edilmiş, onların bazasında 35 minədək kəndli-fermer təsərrüfatı, o cümlədən 224 kooperativ, 491 kiçik müəssisə, 1676 birgə təsərrüfat yaradıldı (10, 30 oktyabr).

1995-1996 illərdə Neft Daşlarında yanacaq qazının tutulub sahilə ötürülməsi üçün kompressor stansiyası istifadəyə verilərək modernləşdirildi və gücü iki dəfə artırıldı. 600-dan çox, təkcə Balaxanı-Sabunçu-Ramana yatağında 380 köhnə quyu təmir olunub istismara verilmişdir (9, 27 mart).

1996-cı il Bakı şəhərində yağ, qoz-fındıq emalı, «Koka-kola» zavodları açıldı (8, 24 may).

Naxçıvan MR-da 18 min hektara yaxın sahəsinin suvarılmasına imkan verən Vayxır su anbarının inşası 1996-cı ildə bərpa olundu (11, 16 avqust).

1995-ci ildə başlayaraq Bakıda Beynəlxalq Telefon Stansiyaları quruldu və beynəlxalq əlaqə sisteminə qoşuldu. 1996-cı ilin baharında Azərbaycan-Rusiya-İngiltərə «Azavrotel» birgə müəssisəsi rəqəmli ATS quraşdırıldı (1, 24 oktyabr). Rabitə Nazirliyi

və «Türk Sell» firması 1996-cı ilin sonlarında «Azərsell» adlı beynəlxalq şəbəkəyə qoşula bilən sellülyar rabitə sistemi quruldu (1, 17 dekabr).

Respublikada gedən proseslər nəqliyyat sahələrini də əhatə edirdi. Belə ki, 1995-ci ildə Naxçıvan hava limanında ağıryüklü təyyarələrin enməsi müasir uçuş-enmə zolağı istifadəyə verildi. Gəncə hava limanın bərpası, yenidən qurulması və beynəlxalq hava limanı statusu alması 1996-cı ildə baş verdi (4, s.433).

Beynəlxalq münasibətlərdə də, irəlləyiş başlanmışdır. 1996-cı il dekabrın 2-3 tarixində Azərbaycan Prezidenti Portuqaliyanın Lissabon şəhərində ATƏT-in zirvə toplantısında iştirak etmişdir. ATƏT-in 54 üzvündən (Ermənistandan başqa) 53-çü Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın milli mənafelərinə uyğun prinsipləri müdafiə etdi (5, s.349).

1997-ci il sentyabrın 25-28 Azərbaycan Prezidenti İtaliyaya səfərdə oldu. Səfər çərçivəsində əsas məsələ Xəzərin energetika ehtiyatı mövzusu olmuşdur. Səfər zamanı «Acip» (İtaliya) kompaniyası ilə neft müqaviləsinin bağlanması əməkdaşlığa geniş imkanlar açdı. Səfər zamanı iki dövlət bəyanat imzaladılar (3, s.206).

Azərbaycan Respublikasının prezidenti H.Əliyev 1998-ci il yanvar ayının 8-də ABŞ konqresinin üzvlərini, konqresmen Ayk Skeltonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə iki ölkə arasında münasibətlərin inkişaf etməsindən neft yataqlarının birgə işlənilməsindən, ABŞ-ın nüfuzlu maliyyə qurumlarının Xəzər dənizi hövzəsindəki yataqlardan çıxarılan neft və qazı dünya bazarına boru vasitəsilə ixrac olunmasından, 1992-ci ildə qəbul olunmuş 907-ci maddənin münasibətlərə mənfi təsir göstərilməsindən, Azərbaycanın 1 milyon vətəndaşının yerindən-yurdundan zorla çıxarılmasından söhbət aparılmışdı (2, № 6 (1815) 9 yanvar).

1998-ci il yanvarın 17-də prezident H.Əliyev Yaponiyanın Beynəlxalq İqtisadi Əməkdaşlıq Fondunun prezidenti Akira Nisiqakinin rəhbərliyi ilə nümayəndə heyətini qəbul etdi. Görüşdə Azərbaycanda Yaponiya səfirliynin açılacağına ümidvar olduğundan, neft və qaz yataqlarının birgə işlənilməsindən söhbət getmişdi (2, № 14 (1823) 18 yanvar).

Azərbaycan Respublikasının prezidenti H.Əliyev 1998-ci il yanvar ayının 22-də AŞPA-nın nümayəndə heyətinin üzvlərini Jak Bomeli və Corc Kvertaytı qəbul etdi (2, № 17 (1826) 23 yanvar). Bir gün sonra prezidenti H.Əliyev Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Terri Adamsı qəbul etmişdi (2, № 18 (1827) 24 yanvar). 1998-ci il yanvarın 24-də Azərbaycan Respublikasının prezidenti H.Əliyev Tiflisə səfərə getdi. Tiflis hava limanında H.Əliyevi Gürcüstan prezidenti E.Şevernadze qarşıladı. Görüşdə Cənubi Qafqazda gedən proseslər və başqa məsələlər müzakirə olunmuşdu (2, № 19 (1828) 25 yanvar).

1998-ci il yanvarın 27-də Yaponiyanın paytaxtı Tokio şəhərində beynəlxalq maliyyə qurumlarının və donor ölkələri nümayəndələrinin iştirakı ilə Dünya Bankının məşvərət qrupunun Azərbaycan üzrə müşavirəsi öz işinə başladı. Tədbirdə Azərbaycan Respublikasının Baş naziri Artur Rəsizadə iştirak etmişdir (2, № 22 (1831) 29 yanvar). Azərbaycan Respublikasının prezidenti H.Əliyev 1998-ci il fevralın 9-da prezident iqamətgahında Türkiyə Respublikasının ölkəmizdəki yeni fövqəladə və səlahiyyətli səfiri Qədri Ecvet Tezcanın etimadnaməsini qəbul etmişdir (2, № 31 (1840) 10 fevral).

Azərbaycan-Livan arasında münasibətlərə 1998-ci il fevralın 11-də Prezident H.Əliyev Livanın baş naziri Rafiq Əl-Həriri ilə görüş təkan verdi. İkitərəfli hökumətlərarası sənədlərin imzalanması mərasimi keçirilmişdir. Sənədləri Azərbaycan Resrpublikası tərəfindən baş nazirin müavini Abid Şərifov, iqtisadiyyat naziri Namiq Nəsrullayev, Dövlət Kömrük Komitəsinin sədri Kəmaləddin Heydərov, Livan tərəfindən nəqliy-

yat naziri Ömər Mashavi, maliyyə naziri Fuad Sahirov, ticarət naziri Yasinne Cabir imza atdılar (2, № 33 (1842) 12 fevral).

1998-ci il fevral ayının 12-də Azərbaycan prezidenti H.Əliyev ABŞ-ın «Tok-Teksako» şirkətinin birinci vitse-prezidenti Robert Blək başda olmaqla nümayəndə heyətini qəbul etdi. Görüşdə neft-qaz sənayesinin inkişaf etdirilməsində yaxından iştirak etməsini, «Kürdaşı» yatağının istismar olunmasında 25 % pay almaq istədiyini bildirdi. H.Əliyev təkliflərin baxılması üçün ADNŞ-nə tapşırıq verdi (2, № 35 (1843) 14 fevral).

Türkiyə prezidenti Süleyman Dəmirəlin və baş nazir Məsud Yılmazın dəvəti ilə Azərbaycan Respublikasının prezidenti H.Əliyev 1998-ci il fevral ayının 13-də qardaş dövlətə qısa müddətli işgüzar səfərə yola düşdü (2, № 35 1844) 14 fevral).

Azərbaycan Respublikasının prezidenti H.Əliyev 1998-ci il fevralın 18-də Yaponiyanın «Mitsui» Şirkətinin prezidenti Takenasuke Yamasakini və şirkətin enerji qrupunun direktoru Şoini qəbul etmişdir. Görüşdə bir çox məsələlərlə yanaşı hələ 1973-74-cü illərdə «Toşiba» (Yaponiya) Şirkətinin respublikamızda kondinsionerlər zavodunun tikilməsi barəsində də, söhbət getmişdi. Cənab Yamasaki «Mitsui»nin Azərbaycan iqtisadiyyatının müxtəlif şəhərlərində çalışmaq istədiklərini prezidentə bildirdi. Həmin gün şirkətin başqa nümayəndə heyətini baş nazir Artur Rəsizadə qəbul etdi qəbul etdi. Görüşdə «Şimal» elektrik stansiyasının bərpası üçün ayrılacaq kredit haqqında danışıqlar aparıldı. Fevralın 17-də Bakı şəhərində «Mitsui»-nin ofisinin açılışı oldu. Bu şirkət 1875-ci ildə yaradılmışdır. İllik dövriyyəsi 140 milyard dollardır. Bakı şəhərindəki ofis sayca 226-cı nümayəndəlikdir (2, № 39 (1848) 19 fevral).

1998-ci il fevralın 23-də Yaponiyanın baş naziri Ryutazo Haşimotanın dəvəti ilə bu ölkəyə rəsmi səfərə getdi. Fevralın 24-də H.Əliyev Yaponiyanın «İtoçu», «Niçimen», «Mitsui» şirkətlərinin, İxrac-idxal bankının, Yaponiya Beynəlxalqn, İxrac-idxal bankının, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin, Xarici Ticarətin İnkişafı Təşkilatının rəhbərlərini müxtəlif vaxtlarda qəbul etdi. Görüşlərdə Azərbaycan-Yaponiya əməkdaşlığının, habelə hər iki öləənin şirkətləri arasında iqtisadi əlaqələrin genişləndirilməsi barəsində. ARDŞ və «Azərkimya» dövlət şirkəti ilə əməkdaşlıq imkanlarından söhbət edildi (2, №44 (1853) 25 fevral).

1998-ci il fevralın 25-də Prezident H.Əliyev Tokioda ölkənin imperatoru əlahəzrət Akixito ilə görüş keçirdi (2, № 50 (1859) 4 mart).

1998-ci il martın 31-də «Bi-Pi/Statoyl» Alyansının Bakıda yeni ofisi açıldı. Mərasimdə Prezident H.Əliyev, Böyük Britaniyanın «Britiç Petroleum» şirkətinin baş icraçı direktoru Con Braun və Norveçin «Statoyl» şirkətinin vitse-prezidenti Yohan Nik Vold iştirak etdi (2, № 77 (1891), 1 aprel).

1998-ci il aprelin 13-də Azərbaycan Respublikası prezidenti H.Əliyev və Belçika Krallığının baş naziri Jan Lük Deanın təkbətək görüşü oldu. Görüşdə münasibətlərin daha da genişləndirilməsi, 20% torpağını erməni hərbi birləşmələri tərəfindən işğal olunduğu, 1995-ci ildə qəbul olunmuş Konstitusiyanın qəbul olunmasından və başqa məsələlərdən söhbət açılmışdır. Həmçinin Belçikanın Böyük Neft Şirkəti «Petrofina»nın Xəzər dənizinin Azərbaycan sektorunda olan «Lənkəran-dəniz» və «Talış-dəniz» neft yatağında müştərək iş görməsini xüsusi qeyd edildi (2, №81 (1890) 14 aprel).

1998-ci aprelin 14-də Azərbaycan Respublikası prezidenti H.Əliyev Türkiyə Cumhuriyyəti Silahlı Qüvvələri Baş Qərargahının rəisi ordu generalı İsmayıl Haqqı Qaradayını qəbul etdi. Görüşdə Qafqaz regionunun xüsusi əhəmiyyət kəsb etdiyini, Gürcüstanın daxilində münaqişələrin, Türkiyənin qonşusu İraqda həmçinin Türkiyənin özündə-qərb və şimal tərəfindən olan problemlərdən, Ermənistan-Azərbaycan münaqişəsindən söhbət açıldı (2, №82 (1891) 15 aprel ).

1998-ci il aprelin 29-da MDB üzvü olan ölkənin dövlət başçılarının zirvə görüşü münasibətilə Prezident H.Əliyev Moskva şəhərinə yola düşdü. MDB sammitində təşkilatın fəaliyyəti, münasibətlərin genişdirilməsi, əşkilat məsələr müzakirə olundu. Həmin gün prezident Bakıya geri döndü (2, № (1905), 30 aprel).

Prezident H.Əliyev 1998-ci il mayın 16-da ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Yukalovu (Rusiya), Linn Paskonu (ABŞ) Jorj Bojyeni (Fransa) qəbul etmişdir. Görüşdə bildirildi ki, münasibətlər 1996-cı ildə Lissabondan sonra 1997-ci ildə mürəkkəb olmuşdur. 1997-ci ildə müəyyən nəticələr əldə etmək fikrində idik. Lakin 1998-ci ildə məlum hadisələrdən sonra baş verən dəyişiklikləri səbrlə gözləyirdik. Sonra görüş bağlı qapılar arxasında davam etdi (2, № 112 (1921), 17 may).

1998-ci il mayın 22-də H.Əliyev Avropa Şurası Parlament Assambleyasının (AŞPA) vitse-prezidenti, İsveçrə parlamentinin deputatı Ernst Mulemanı qəbul etdi. Görüşdə NATO-nun şərqə doğru hərəkət etməsindən, Kosovo problemi, dünyada gedən proseslərdən söhbət açıldı (2, № 117 (1926), 23 may).

1998-ci il mayın 30-da Azərbaycan Respublikası prezidenti H.Əliyev BMT-nin baş katibinin köçkünlərlə iş üzrə xüsusi nümayəndəsi Doktor Frensis Denq başda olmaqla nümayəndə heyətini qəbul etmişdir. Görüşdə köçkünlər problemi müzakirə edilmiş onların həlli yolları araşdırılmışdır (2, №123 (1932), 31 may).

1998-ci il iyunun 2-də «Gülüstan» sarayında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Avropa Komissiyasının komissarı Van Den Brukla təkbətək görüşü oldu. Görüşdə Avropa Birliyi ilə əməkdaşlıqdan, TRASEKA proqramının qədim «İpək yolu»nun bərpa edilməsindən və bir çox başqa məsələlrdən söhbət açıldı. Sonra isə nümayəndə heyətini qəbul etdi (2, № 127(1936), 5 iyun).

1998-ci il iyunun 4-də Azərbaycan Respublikası prezidenti H.Əliyev Qara Dəniz iqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin 4-cü zirvə görüşündə iştirak etmək üçün Krıma gəlmişdir. Zirvə görüşündə 9 prezident və 2 baş nazir iştirak edirdi (2, №128, (1937), 6 iyun).

Qara Dəniz İqtisadi Əməkdaşlığı 1992-ci ilin iyununda yaradılmışdır. O vaxt İstanbulda ölkənin Azərbaycan, Albaniya, Bolqarıstan, Ermənistan, Yunanıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə və Ukraynanın dövlət və hökumət başçıları QİƏ-nin təsis edilməsi haqqında bəyannamə imzalamışlar. Bəyannamədə ticarət və sənaye, nəqliyyat, rabitə, elm və texnika, energktika, mineral xammalın hasilatı və emal, kənd təsərrüfatı, turizm və ekologiya sahəsində əməkdaşlığı təşviq etmək nəzərdə tuturdu.

Yalta zirvə toplantısında 12 bənddən ibarət bəyannamə qəbul olundu (2, №129 (1938), 7 iyun).

İyunun 23-də Azərbaycan Respublikası prezidenti H.Əliyev Hindistanın xarici işlər naziri xanım Vasundxara Raceni və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir (2, №142 (19510, 24 iyun ).

1998-ci il iyulun 19-da H.Əliyev B.Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri Toni Bleyrini dəvəti ilə bu ölkəyə rəsmi səfərə getdi. İyulun 20-də Böyük Britaniya dövlət naziri Daq Henderson Prezident H.Əliyevlə görüşdü. Həmin gün Böyük Britaniyanın «Monument-oyl» Qaz Şirkətinin baş icrası direktoru Tim Eqqarlada görüşü oldu. İyulun 21-də H.Əliyev «Fuers» jurnalının Beynəlxalq prezidenti Pətl Kompan ilə görüşü keçirildi. Həmin gün London vaxtı ilə saat 12$^{00}$-da prezident H.Əliyev məşhur Bukingem sarayında Böyük Britaniya İrlandiya Birləşmiş Krallığının kraliçası əlahəzrət II Yelizaveta ilə görüşdü (2, № 165 (1973) 22 iyul ).

İyulun 21-də B.Britaniyanın baş naziri Toni Bleyr öz iqamətgahında prezident H.Əliyevi qarşıladı. Görüşdə əlaqələrin daha inkişaf etdirilməsinin söhbət açıldı. Həmin gün Toni Bleyrin iqamətgahında ölkələrimiz arasında əməkdaşlığın hüquqi bazasının möhkəmləndirən sənətlər imzalandı. Sonra isə Xəzər dənizinin Azərbaycan sektorunda «Araz», «Alov», «Şərq», «İnam» və «Zərdab» perspektivli strukturlarının kəşfiyyatı, işlənilməsi və məhsulun pay bölgüsü 3 böyük neft sazişi imzalandı. Həmçinin Bakıda Dənizkənarı parkda 150 milyon dollar dəyərində mehmanxana ofis kompleksinin tikintisi ilə əlaqədar niyyətlər haqqında birgə Bəyannamə imzalandı (2, № 166 (1974) 23 iyul).

1998-ci il avqustun 27-də Azərbaycan Respublikası prezidenti H.Əliyev ABŞ-ın «YUNOKAL» Neft Şirkətinin prezidenti Con Aymlı qəbul etdi. Görüşdə iştirak edən ARDNŞ-nin Prezidenti Natiq Əliyev görülən işlər barədə məlumat verdi. Bildirilirdi ki, «YUNOKAL»ın iştirakı ilə «Dan ulduzu» yatağında kəşfiyyat quyusu qazılır və «Şahdəniz» yatağında qazma işləri uğurla davam edir (2, № 197 (2006) 28 avqust).

Prezident H.Əliyev 1998-ci il avqustun 30-da Prezident Sarayında Avropa Şurasının baş katibi Daniel Tarşisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi (2, № 200 (2009) 19 sentyabr ).

1998-ci il sentyabrın 30-da Azərbaycan Respublikası prezidenti H.Əliyev Bakıda səfərdə olan NATO-nun baş katibi Havyer Salananı qəbul etdi. Görüşdə tərəflər Lissabonda, Madriddə, Bakıda həmçinin H.Əliyevin ABŞ-a ilk rəsmi səfəri zamanı Nyu-Yorkda olan görüşlərini məmnunluqla xatırladılar.

Prezident H.Əliyev 1994-cü və 1996-cı illərin mayında Brüsselə səfərlərini yada salaraq dedi ki, NATO-nun baş qərargahında «Sülh naminə tərəfdaşlıq» proqramını imzaladım. O vaxtdan əlaqələrimiz daha da genişlənir. NATO-nun baş katibi bildirdi ki əlaqələrin inkişafı Avropa və Asiya arasında əlaqələrin inkişaf etdiyini və Azərbaycan üçün geniş imkanlar açır (2, № 226 (2035) 10 oktyabr).

1998-ci ilin oktyabrında Azərbaycan və Gürcüstan respublikalarının sərhədində, məşhur «Qırmızı körpü»nün yaxınlığında yeni, müasir körpünün təntənəli açılış mərasimi oldu.

Bu mərasimdə Prezident H.Əliyev, Milli Məclisin sədrinin müvaini Yaşar Əliyev, baş nazirin müavini Abid Şərifov, Gürcüstan Prezidenti E.Şevarnadze, Gürcüstan Parlamentinin sədri Zurab Jvaniya iştirak edirdi (2, № 234 (2043) 10 oktyabr).

1998-ci il oktyabrın 23-də Azərbaycan Respublikası Prezidenti H.Əliyev Qazaxıstanın baş naziri Nurlan Balqimbayevi qəbul etdi. Sonra isə H.Əliyevin iştirakı ilə Azərbaycan Qazaxıstan ikitərəfli sərhədlərin imzalanması mərasimi oldu. Azərbaycan və Qazaxıstan hökumətləri arasında rabitə sahəsində əməkdaşlıq haqqında sazişlər, Azərbaycan Milli Bankı və Qazaxıstan Milli Bankı arasındla informasiya mübadiləsi və maliyyə-bank sistemi sahəsində tədqiqatlar haqqında saziş imzalandı (2, № 248 (2057) 24 oktyabr).

Azərbaycan prezidenti H.Əliyev 1998-ci il oktyabrın 24-də Şimali Atlantika Parlamenti Assambleyasının NATO–nun genişləndirilməsi və yeni Demokratik Ölkələr üzrə Köməkçi Komitəsinin nümayəndə heyətini qəbul etdi. Görüşdə 1993-1994-cü illərdə BMT-nin qəbul etdiyi qətnamələrdən Təhlükəsizlik Şurasının sədrinin bəyanatlarından söhbət açıldı (2, № 249 (2058) 25 oktyabr).

Azərbaycan Respublikası prezideti H.Əliyev Türkiyə Cümhuriyyətinin 75 illiyi münasibətilə keçirilən yubiley mərasimində iştirak etmək üçün oktyabrın 28-də qardaş ölkəyə səfərə yola düşdü (2, № 252 (2061) 29 oktyabr).

Beləliklə, 1996-1998-ci illərdə də Azərbaycan Respublikasının xarici siyasəti fəallığı ilə seçilmiş, ölkənin daxili inkişafında xeyli uğurlar əldə edilmişdir.

### ƏDƏBİYYAT

1.Azərbaycan qəzeti, 1996.
2.Azərbaycan qəzeti, 1998.
3.Azərbaycan Respublikası 1991-2001.Bakı, XXI-Yeni Nəşrlər Evi 2001, 276 s.
4.Azərbaycan tarixi, VII cild. Bakı, Elm, 2003,626 s.
5.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild, Bakı, Lider Nəşriyyat, 2004, 439 s.
6.«Günay» qəzeti, 1996.
7.Xalq qəzeti, 1996.
8.Xalq qəzeti, 1997.
9.Xalq qəzeti, 2006.
10.Respublika, 2000.
11.Respublika, 2002.
12.TİEA, f 1, s 19, 1961, v. 115.

**А.М.БАЛАЕВ**

### ОБЩИЙ ВЗГЛЯД НА ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1996-1998 гг.)

В данной статье главными объектами исторического исследования стали основные направления внешней политики Азербайджанской Республики в 1996-1998 гг.

Автор статьи рассматривает и оценивает основные итоги всесторонней внешнеполитической деятельности руководства Азербайджанской Республики в указанный отрезок времени. Особое внимание уделяется титанической деятельности Президента Республики Г.А.Алиева. Автор на основе первоисточников, научной литературы и материалов печати приходит к такому справедливому выводу, что к концу XX столетия Азербайджанская Республика вела уже более активную внешнюю политику, играла заметную роль в международных отношениях, заняла достойное место в системе международных отношений эпохи.

**A.M.BALAYEV**

### GENERAL VIEW ON BASIC DIRECTIONS OF FOREIGN POLICY OF THE AZERBAIJAN REPUBLIC

In the given article the basic directions of foreign policy of the Azerbaijan Republic in 1996-1998 became the main objects of historical research.

The author of the article considers and estimates the basic results of all-round foreign policy activity of the government of the Azerbaijan Republic in the specified period. The special attention is given to titanic activity of the President of the Azerbaijan Republic H.A.Aliyev. The author on the basis of primary sources, the scientific literature and press materials comes to such a fair conclusion that by the end of the XX century the Azerbaijan Republic already conducted more active foreign policy, played an appreciable role in the international relations, and occupied a worthy place in the system of international relations of the epoch.

***Rəyçilər: t.e.n.T.Kocayeva, t.e.d.M.C.Qasımlı.***

***AMEA-nın Tarix İnstitutunun «Azərbaycan Respublikası Tarixi» şöbəsinin 20 iyul 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №10).***